# Sənəndəcdə yaşayan üç şəhid ailəsi ilə görüş - 14 /May/ 2009

İran İslam Respublikasının Ali Məqamlı Rəhbəri Həzrət Ayətullah Xamenei cümə günü axşam Sənəndəc şəhərində yaşayan üç şəhid ailəsinə baş çəkmişdir. Hər bir şəhid ailəsi ilə səmimiyyət və məhəbbət şəraitində keçən görüşdə İslam İnqilabının Rəhbəri Kürdüstanın qəhrəman və məzlum şəhidlərinin ailə üzvlərinin nümayiş etdirdikləri böyük səbir və dözümü həddən artıq yüksək qiymətləndirdiyini bildirmişdir.

İslam, İslam İnqilabı və İran uğrunda Həzrət Ayətullah Xameneinin baş çəkdiyi ailələrdən biri 4, digəri 2, üçüncüsü isə 1 şəhid vermişlər.